*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   9 may 2018-ci il   № 35 (2251)   Qiyməti 25 qəpik


*Ön xətdən reportaj*

# "O dağların o tərəfi Şuşadı!"



*Hər dəfə ön xətdə yerləşən hərbi hissəyə gedəndə, torpaqlarımıza keşik çəkən məğrur əsgərlərimizi görəndə ürəyim dağa dönür.*

Yenə də yolumuz ön xətdə yerləşən "N" hərbi hissəsinədir. Yaşayış məntəqələrini arxada qoyub, hərbi hissəyə çatırıq. Səhrada yaradılan bu hərbi hissə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduya göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir. Burada şəxsi heyətin nümunəvi xidmət etməsi üçün hər bir incəlik nəzərə alınıb. İlk həmsöhbətimiz şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabit mayor Qalibiyyət Əliyev də hərbi hissədə yaradılan şəraitdən, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığından ağızdolusu danışdı. "Bu gün ordumuzun əksər hərbi hissələrində təmir və yenidənqurma işləri aparılıb. Təbii ki, bu yuxarı komandanlığın, ən əsas da Ali Baş Komandan cənab İlham Əliyevin orduya diqqət və qayğısının sübutudur. Hərbi hissəmizdə şəxsi heyətin xidmətlərinin düzgün təşkil olunması və asudə vaxtlarda istirahət etmələri üçün bütün şərait yaradılıb. Təkcə burada deyil, hərbi hissədən kənarda yerləşən döyüş postlarında da hər cür şərait var. Ona görə də xidmət yüksək səviyyədə təşkil olunur. Döyüşçülərimiz postlarda ayıq-sayıq dayanır, Vətən torpaqlarını göz bəbəyi kimi qoruyurlar."

Zabitlə söhbətləşdikdən sonra döyüş postuna - Vətən keşikçilərinin yanına yola düşürük. Daşlı-çınqıllı dağ yolları ilə hərəkət edirik. Sərt eniş və yoxuşu olan bu yollarda piyada hərəkət etmək belə çətin olduğu halda, sürücümüz avtomobili sərrast idarə edir. Təbii ki, təhlükəli və sərt döngəsi olan dağ yollarında avtomobili belə məharətlə idarə etməsi onun yetərincə təcrübəli olmasının sübutudur.

Nəhayət, düşmənlə üz-üzə dayanan döyüşçülərimizin yanına çatırıq. Bizi zabit İlkin İsgəndərov qarşılayır. Söhbət əsnasında öyrənirik ki, baş leytenant İ.İsgəndərov Şəmkir rayonundandır. Əsgəri xidməti dövründə zabit olmaq arzusu onu bu gün Vətən torpaqlarını qoruyan igidlərin sırasına gətirib çıxarıb. Hər kəlməsindən vətənpərvərliyi hiss olunan zabit Vətən üçün yaşamağın şərəfli olduğunu dedi:

- Uşaqlıqdan hərbçi olmaq istəmişəm. Bu peşəni mükəmməl öyrənib, xalqıma sədaqətlə xidmət etmək əsas arzumdur. Hər zaman ordu sıralarında olmaq, hərbi forma geyinmək, şərəflə xidmət etmək əsas amalım olub. Orduya, hərbi formaya olan maraq, sevgi mənə ailədən aşılanıb. Uşaqlığım Azərbaycanın Milli qəhrəmanlarının döyüşlərdəki şücaətlərini dinləməklə keçib. Əsgərliyə çağırılanda sevincimin həddi-hüdudu yox idi. Axır ki, mən də forma geyinəcəkdim. Xidmətə başlayanda zabitlərimizin bizə dərs zamanı və asudə vaxtlarda danışdığı 20 Yanvar, Xocalı Soyqırımı hadisələri haqqında eşitdikcə, düşmənə nifrətim daha da artdı. Çox keçmədən zabit olmaq istədiyimi komandirlərimə bildirdim. Valideynlərim qəbul etdiyim qərarı eşidəndə sevindilər. Telefonda onların mənə "Sən bu gündən təkcə bizim yox, bütün Azərbaycan xalqının oğlusan" deməsi, mənim zabit olmaq üçün verdiyim qərarın məsuliyyətini ikiqat artırdı. İmtahanlarımı yüksək nəticələrlə başa vurdum və bu gün qürur duyuram ki, Vətən torpaqlarını qoruyan, onun üçün canını belə əsirgəməyən oğullar sırasındayam. Biz istənilən an Ali Baş Komandanımızın döyüş əmrini yerinə yetirməyə hazırıq.

(Ardı 4-cü səhifədə)

*Minnətdarlıq*

## Belə dövlətin vətəndaşı olmaq qürurvericidir

Oğlum Malik Müzəffərov 1973-cü ildə Neftçala rayonunda anadan olmuşdu. 1 nömrəli orta məktəbdə təhsil almışdı. 1991-ci ildə onu fərəhlə, qürurla ordu sıralarına yola salmışdıq. 1993-cü ilin aprelin 3-də şəhid oldu.

Malik vətənpərvər oğul idi. Orta məktəbdə oxuyarkən müəllimləri ondan həmişə razılıq edərdilər. 20 Yanvar faciəsini unuda bilmirdi. Xalqımızın başına açılan müsibətlər, faciələr onun Vətən sevgisini ümmana döndərmişdi. Oğlum böyüdü. Böyüdükcə də faciələrin mahiyyətini daha əhatəli anladı. Müharibə başladı. Torpaqlarımız işğal olundu. Bütün fikri ön xətdə idi. Torpaqlarımızın müdafiəsinə qalxmış oğulların sırasında olmağa, torpaqlarımızı işğaldan azad etməyə tələsirdi, çox tələsirdi...

Oxuduğu məktəbdə tikinti işləri gedirdi. Boş vaxtlarında, istirahət günlərində fəhlələrə kömək edirdi. Deyirdi ki, "Biz yeni müstəqillik qazanmış dövlətik, vaxt gələcək savadlı gənclərimiz ölkəmizi dünyada tanıdacaq..."...

Martın 21-də anadan olmuşdu. Hər dəfə zarafatla deyərdi ki, mənim ad günümü bütöv xalq qeyd edir. Balamın ölümünü xalq acılarla qarşıladı...

Ağdərədə vuruşurdu. Ən böyük arzusu bir qarış torpağımızın belə düşmən tapdağında qalmaması idi... Bir də mənim gözümdə yaş görmək istəməzdi. Hələ kimsənin yanında ağlamağıma razı olmazdı. Hərdən ruhuyla pıçıldaşıram oğlumun: -Oğul, 25 ildir başımı dik tutmuşam... Göz yaşımı içimə axıtmışam...

İnana bilmirəm yoxluğuna. Onu bilirəm ki, şəhidlər ölmürlər. Mənim oğlum da ölməyib... O mənə də, elimizə də başucalığı gətirdi. Onunla qürur duyuruq - mən də, elimiz də.

Ordumuzun aprel zəfəri bir şəhid anası olaraq mənim də ürəyimə təskinlik oldu. Oğlumun timsalında şəhidlərimizin qisasının alındığını görmək sevindiriciydi. Malikimin "cənnət" adlandırdığı doğma torpaqlarımızın işğaldan azad olunması xəbərini sevinc göz yaşlarıyla qarşıladım. Böyük Qələbənin intizarındayam.

Bu məktubu yazmaqda əsas məqsədim Vətən uğrunda canından keçən övladlarımıza daim ehtiramla yanaşan, şəhidlərin ata-analarını diqqətdə saxlayan, qayğısını göstərən Prezidentimiz İlham Əliyevə öz minnətdarlığımı bildirməkdir. Oğlumun yoxluğuna ən böyük təsəllim dövlət qayğısı olub. Dövlət başçımızın sayəsində daim diqqət mərkəzindəyik. Prezidentimizin səlahiyyətlərinin icrasına başlayan kimi şəhid ailələriylə bağlı sərəncam verməsi biz şəhid ailələrini sevindirdi. Şəhidini uca tutan, ailə üzvləri unudulmayan, qayğısına qalınan dövlətin vətəndaşı olmaq qürurvericidir.

**Gülgəz MÜZƏFFƏROVA,**
**Neftçala rayonu**
**Üzeyir Hacıbəyov**
**küçəsi 4, mənzil 8**

# Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu

### III məqalə



Heydər Əliyev hər şeydən əvvəl ordu quruculuğuna dövlət rəhbərliyini təmin etdi, bu prosesi dövlətin müstəsna səlahiyyətləri çərçivəsinə saldı, ordunu siyasətdən kənarlaşdırdı, ordunun ölkə Konstitusiyasından irəli gələn vəzifələrə xidmət göstərməsini təmin etdi. Orduya siyasi qüvvələrin nüfuz etməsinin qarşısı birdəfəlik alındı, onun formalaşması, təşkilatlanması və təchizatı qəbul edilmiş qanunlarla normalaşdırıldı. Heydər Əliyev orduya vahid komandanlığın praktiki əsaslarını yaratdı, idarəetmə strukturlarına qarşı məsuliyyəti ciddiləşdirdi, ordu quruculuğunu dövlət quruculuğunun digər sahələri ilə üzvü şəkildə əlaqələndirdi. Ordu dövlətin və şəxsən Heydər Əliyevin gündəlik qayğısı ilə əhatə olundu, ordunun ehtiyacları vaxtlı-vaxtında aradan qaldırıldı və bununla bağlı dövlətin bütün orqanlarının cavabdehliyi artırıldı. Dövlət tərəfindən dövlətin və xalqın mənafelərinə cavab verən hərbi siyasət müəyyənləşdirildi, bu siyasətlə ordu quruculuğu qarşısında dayanan vəzifələr və onların icra yolları konkretləşdirildi, dövlətin yetərli müdafiə qabiliyyətinin yaradılması üçün əməli addımlar atıldı.

Heydər Əliyevin rəhbərliyi altında ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi siyasəti hazırlandı. Ulu Öndər bildirirdi ki, güclü ordu üçün güclü iqtisadiyyat lazımdır. Bunun üçün də onun rəhbərliyi və təşkilatçılığı altında ölkənin iqtisadiyyatının yenidən qurulması başlandı, xalqımızın rifahının yaxşılaşmasına və ölkəmizin inkişafına xidmət edən neft strategiyası uğurla həyata keçirildi, ölkəyə çox böyük miqdarda xarici investisiya cəlb edildi, köklü iqtisadi islahatlara start verildi. Heydər Əliyevin müstəsna fəaliyyəti ilə ölkədə bərqərar olmuş ictimai-siyasi sabitlik iqtisadi inkişaf üçün əlverişli zəmin yaratdı. Ölkənin iqtisadiyyatının güclənməsi ilə isə ordunun maddi-texniki vəziyyəti yaxşılaşdı, orduda zəruri infrastruktura yaradıldı, ordu yeni silah və hərbi texnika ilə təmin edildi, ordunun təchizat mənzərəsi günügündən dəyişməyə başladı. Ordunun maddi-texniki bazasının təkmilləşməsi isə onun döyüş qabiliyyətini gücləndirdi, müdafiə imkanlarını daha da artırdı.

Heydər Əliyev ordu ilə xalq arasındakı əlaqələri yeni bir səviyyəyə qaldırdı, bu əlaqələri daha səmərəli və səmimi etdi. Bütün fəaliyyətində xalqa güvənən, xalqın etimadına arxalanan Heydər Əliyev xalqı ordunun güc mənbəyi, ordunu isə xalqın bir parçası sayırdı. O əmin idi ki, xalqın orduya doğma münasibəti, xalqın ordunu qayğı ilə əhatə etməsi ordunun inkişafının və möhkəmlənməsinin əsas şərtlərindən biridir. Heydər Əliyev təkidli şəkildə bildirirdi ki, xalqın ayrılmaz hissəsi sayılan ordumuz xalqın və vətəndaşların qayğısı altında olmalıdır. "Xalq ordunu daim sevməli, ona kömək etməlidir. Əgər xalq azad, sərbəst yaşamaq istəyirsə, ölkəsini, torpaqlarının toxunulmazlığını arzu edirsə, gərək hər şeydən öncə orduya qayğı göstərsin. Ordunun hörmətini qaldırmaq lazımdır. Hərbi peşə Azərbaycanda ən hörmətli peşələrdən biri olmalıdır. Hər bir vətəndaş Azərbaycan əsgərinə, zabitinə hörmət, ehtiram və qayğı göstərməlidir. Hər bir Azərbaycan vətəndaşı, hər bir gənc orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir", - deyən Heydər Əliyev ordu quruculuğunda mənəvi əhval-ruhiyyənin və hərbi vətənpərvərlik tərbiyəsinin qaldırılmasının xüsusi əhəmiyyətini qeyd edirdi. Azərbaycan Ordusunun uğurla formalaşmasının səbəblərindən biri də budur ki, cəmiyyətdə orduya, orduda xidmətə münasibət dəyişdi. Azərbaycanın müstəqilliyinə sədaqət, onun müstəqilliyini müdafiə etmək hərbi xidmətə münasibətin əsas məzmununu təşkil etdi. Heydər Əliyevin şəxsi nümunəsi bütün hərbi qulluqçularda Azərbaycan dövlətçiliyinə xidmətin sağlam hisslərini formalaşdırdı. Mənəvi əhval-ruhiyyənin sağlamlaşdırılması üçün hərbi hissələrdə nizam-intizamın yaradılması, tələbkarlıqla qayğının əlaqələndirilməsi təmin edildi, qanunçuluğa əməl edilməsi ciddi nəzarət altına götürüldü. Xalqın və dövlətin mübarizlik hissləri, düşmənə barışmazlıq qətiyyəti ordunun şəxsi heyətinin mənəvi keyfiyyətlərini müəyyənləşdirən əsas amillərə çevrildi. Bu keyfiyyətlərin formalaşdırılmasında Heydər Əliyev Azərbaycan xalqının hərbi irsinin öyrənilməsinə xüsusi diqqət yetirirdi.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda hərbi təhsilin mükəmməl sistemi yaradıldı. Bu isə imkan verdi ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün zəruri olan zabit kadrları respublika daxilində hazırlansın. Milli kadr hazırlığının yüksək səviyyədə həyata keçirilməsi üçün Azərbaycanda mövcud olan ali hərbi məktəblərin fəaliyyəti tamamilə yenidən quruldu, dünya ölkələrinin qabaqcıl təcrübəsi yerli xüsusiyyətləri nəzərə almaqla bu məktəblərin işinə tətbiq edildi. Bundan başqa Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı, bütün səviyyəli kadrların hazırlığı üçün ordu sistemində təlim mərkəzləri təşkil edildi. Eyni zamanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı açıldı. Sonradan bu filial Heydər Əliyev adına Hərbi Liseyə çevrildi. Heydər Əliyev dəfələrlə gənc zabitlərin buraxılış mərasimlərində iştirak edərək, onların qarşısında çıxış etdi, onlara öz xeyir-duasını verdi. Böyük əminliklə qeyd etmək olar ki, Azərbaycanın hərbi təhsil sisteminin formalaşdırılması da ulu öndər Heydər Əliyevdən Azərbaycan xalqına irs qalan dəyərli miraslardan biridir.

Ordu quruculuğunda ardıcıllıq, elm və təcrübənin əlaqələndirilməsi, hərbi qulluqçuların sosial qayğısının təmin edilməsi və s. cəhətlər də Heydər Əliyevin rəhbərliyi altında aparılan ordu quruculuğunun uğurlarının şərtlərindən hesab oluna bilər. Heydər Əliyev ordu quruculuğuna qayğı göstərməklə bərabər, ordunun şəxsi heyəti qarşısında ciddi tələblər də qoyurdu. Həmin tələblər hərbi qulluqçuların qarşısında dayanan başlıca vəzifələr kimi bu gün də aktualdır və onların yerinə yetirilməsi hər zaman da aktual olaraq qalacaqdır. Heydər Əliyev hərbi qulluqçulara olan tələbləri belə müəyyənləşdirirdi: "Ordu, Müdafiə Nazirliyi, Silahlı Qüvvələrin komandanları, bütün Silahlı Qüvvələr dövlətin, xalqın onlara göstərdikləri qayğıya layiq xidmət etməlidirlər. ...Ordumuz, hərbi hissələrimiz, Silahlı Qüvvələrimiz, əsgərlər və zabitlər bu qayğıya cavab olaraq, birincisi, gərək sədaqətlə xidmət etsinlər. İkincisi, gərək onlar hərbi hissələrdə yüksək vətənpərvərlik, sədaqət, mənəviyyat əhval-ruhiyyəsi yaratsınlar, bu keyfiyyətlərə malik olsunlar. Ordu siyasətə qarışmamalıdır. Ancaq orduda xidmət edən hər bir əsgər, zabit, general bilməlidir ki, o, müstəqil Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycan dövlətinin, dövlətçiliyinin, əzminin müdafiəsi, ölkəmizin konstitusion əsaslarının qorunması hər bir əsgərin, zabitin, döyüşçünün borcudur. Zabitlərin öz peşəkarlığını artırması, ali hərbi məktəblərdə təhsil sisteminin yaxşılaşdırılması, hərbi hissələrdə sağlam mənəvi mühitin yaradılması və bütün yabançı meyillərin aradan qaldırılması komandirlərimizin, zabitlərimizin, Silahlı Qüvvələrin rəhbərlərinin müqəddəs vəzifəsidir".

Azərbaycan xalqının ulu öndəri, Azərbaycan Ordusunun xilaskarı və qurucusu Heydər Əliyevin müəyyənləşdirdiyi bu vəzifələr, bütünlükdə ordu quruculuğu ilə bağlı Heydər Əliyev təlimi, Heydər Əliyev siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə də uğurla həyata keçirilməkdədir. Prezident İlham Əliyev tərəfindən müstəqil dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasətə sədaqət və yaradıcı münasibət indi Azərbaycan Ordusunun yalnız bölgədə deyil, dünyanın inkişaf etmiş orduları sırasında özünə layiqli yer tutmasına yol açmışdır.

Ölkə başçısı İlham Əliyevin gündəlik qayğısı nəticəsində son illər ərzində Azərbaycan Ordusu öz inkişafının yeni bir səviyyəsinə qalxmışdır. Müvafiq dövlət siyasətinin izlənilməsi ilə indi ordunun maddi-texniki təchizatı ən müasir tələblərə cavab verir. Ali Baş Komandan İlham Əliyev prezidentliyinin hələ ilk illərində bildirirdi ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsi səviyyəsinə qaldırılacaqdır. Verilən vədə əməl edilməsi nəticəsində bu hədd də artıq xeyli geridə qoyulmuşdur. Təxminən son 10 il ərzində Azərbaycanın hərbi büdcəsi 20 dəfə artaraq Ermənistanın dövlət büdcəsini də xeyli ötmüşdür. Bu da imkan verdi ki, Azərbaycan Ordusunun maddi-texniki təchizat səviyyəsi xeyli yaxşılaşsın. Bu gün Azərbaycan Ordusu dünyanın ən qabaqcıl silahları və hərbi texnikası ilə silahlanmışdır.

Ordunun mənəvi əhval-ruhiyyəsinin sağlamlaşdırılması, milli kadr hazırlığının uğurla davam etdirilməsi, struktur islahatlarının onun qarşısında dayanan vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması Azərbaycan Ordusunun güclənməsinə imkan yaratmışdır. Bunların nəticəsində Azərbaycan Ordusu hazırda Ali Baş Komandanın bütün əmrlərini vaxtında yerinə yetirməyə və Azərbaycan xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrilmişdir. 2016-cı ilin aprelin əvvəllərində Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsində yaratdığı təxribatların qarşısının alınması zamanı hissə və bölmələrin göstərdiyi şücaət, igidlik və qətiyyət də bunun təsdiqidir. İndi şübhə yoxdur ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və İlham Əliyevin Prezidentliyi dövründə inkişafının şərəfli dövrünü yaşayan Azərbaycan Ordusu Azərbaycanın müstəqilliyinin etibarlı qarantı, Azərbaycan xalqının güvənc yeridir.

**Mehman SÜLEYMANOV,**
**Silahlı Qüvvələrin**
**Hərbi Akademiyasının**
**dosenti, tarix elmləri**
**doktoru, ehtiyatda olan**
**polkovnik**

# “Heydər Əliyev və Azərbaycan Ordusu”

## Ulu öndər Heydər Əliyev qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır



*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə mayın 4-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan Ordusu" mövzusunda elmi-praktik konfrans keçirilib.*

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin klubunda keçirilən konfransda əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov konfransda çıxış edərək deyib ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu, ulu öndər Heydər Əliyev qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır: "Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə qısa vaxtda xalqımız mühüm uğurlar əldə etdi. Həmin illərdə Azərbaycanın gələcəyi naminə atılan uğurlu addımlardan biri də gənclərimizin Sovet İttifaqının nüfuzlu ali hərbi məktəblərinə göndərilməsi olub. Bu gün Azərbaycan dövlətinin rifahının, təhlükəsizliyinin təmin olunması Ulu Öndərin ordu quruculuğu sahəsində uzaqgörən fəaliyyətinin bəhrəsidir. Heydər Əliyev respublikamıza ilk dəfə rəhbərlik etdiyi illərdə tez-tez hərbi təhsil müəssisələrinə baş çəkir, istər zabitlər, istərsə də kursantlar arasında azərbaycanlıların azlıq təşkil etməsi ilə heç vaxt barışmırdı. Ötən əsrin 70-ci illərində Ulu Öndərin birbaşa təşəbbüsü ilə Bakıda ilk ibtidai hərbi məktəbin - indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, respublikamızın həyatında olduqca mühüm hadisə oldu. Sonrakı illərin təcrübəsi göstərir ki, həmin təhsil müəssisəsi Azərbaycan gəncliyinin hərbi peşələrə marağının yüksəldilməsində müstəsna rol oynayıb. Məktəbin məzunları olmuş bir çox zabitlər müstəqillik dövründə Milli Ordumuzun formalaşmasında, torpaqlarımızın müdafiəsində qəhrəmanlıqlar göstəriblər".

N.Osmanov deyib ki, Ulu Öndərin ordu quruculuğu istiqamətində başladığı işi yeni dövrün tələbləri əsasında inamla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu məqsədlə bütün zəruri tədbirlərin həyata keçirilməsinə nail olub. Azərbaycan Silahlı Qüvvələrinin kəmiyyət və keyfiyyət baxımından komplektləşdirilməsi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsi, hərbçilərin sosial rifah halının ildən-ilə yaxşılaşdırılması, ordu hissələrinin müasir texnika və avadanlıqla təchiz edilməsi, habelə beynəlxalq təcrübənin mənimsənilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunu bir daha təsdiqləyir.



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Fizuli Salahov ulu öndər Heydər Əliyevin müasir mütəşəkkil ordumuzun yaranmasında müstəsna xidmətlərindən bəhs edib. Bildirib ki, ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətləri arasında Azərbaycan Ordusunun formalaşması və inkişafı xüsusi yer tutur. Ordunun müstəqilliyin qorunmasında və ərazi bütövlüyünün təmin olunmasında həyati əhəmiyyətini nəzərə alan dahi rəhbər bu sahəyə daim böyük diqqət yetirib. Azərbaycanın geosiyasi, geostrateji baxımdan mühüm regionda yerləşməsi ölkənin müdafiə qabiliyyətinin artırılmasını şərtləndirir. Məhz bu baxımdan ulu öndər Heydər Əliyev Azərbaycan Ordusunun formalaşmasını, onun hərbi potensialının artırılmasını, xüsusilə peşəkar milli zabit kadrlarının yetişdirilməsini daim diqqətdə saxlayırdı.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə Azərbaycan hakimiyyətinə qayıdışından sonra qısa müddətdə güclü nizami ordu formalaşdırıldı. Bu gün ordu quruculuğu prosesi Ümummilli Liderimizin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bugünkü konfrans da Ulu Öndərin çoxşaxəli fəaliyyətinin mühüm istiqaməti olan ordu quruculuğu sahəsindəki xidmətlərinə həsr edilib.

Sonra ulu öndər Heydər Əliyevə həsr edilən film nümayiş olunub.

Konfransda tarix elmləri doktoru, Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti, ehtiyatda olan polkovnik Mehman Süleymanovun ümummilli lider Heydər Əliyevə həsr edilmiş "Ali Baş Komandan institutu" və "Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi" kitablarının təqdimatı olub.

Kitablar haqqında məlumat verən müəllif qeyd edib ki, ulu öndər Heydər Əliyev dövlət quruculuğunun bütün istiqamətlərində olduğu kimi, ordu quruculuğu sahəsində də son dərəcə zəngin irs miras qoyub. Təqdim olunan kitablar bu irsin araşdırılması, öyrənilməsi sahəsində ilk addımlardır.

Qeyd olunub ki, "Ali Baş Komandan institutu" kitabında Ali Baş Komandanlıq institutunun elmi nəzəri əsaslarının araşdırılmasına xüsusi diqqət yetirilib. Nəşrdə ölkənin təhlükəsizliyinin təmin edilməsində xüsusi rolu olan Ali Baş Komandan institutunun mahiyyətinin, funksiya və fəaliyyət prinsiplərinin, habelə hərbi siyasətin, hərbi təşkilatın, hərbi idarəetmənin nəzəri əsasları, Ali Baş Komandan institutunun Azərbaycanda formalaşdırılması məsələləri ətraflı tədqiq olunub.

İkinci nəşr barədə də məlumat verən müəllif diqqətə çatdırıb ki, "Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi" kitabı xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və hərbi təhlükəsizliyinin təmin olunması, ölkəmizdə Ali Baş Komandanlıq institutunun real şəkildə formalaşdırılması sahəsindəki tarixi fəaliyyətinin araşdırılmasına həsr edilib. Bundan başqa, ulu öndər Heydər Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu siyasətinin hazırlanması və uğurla həyata keçirilməsi məsələləri də kitabın əsas tədqiqat istiqamətlərindəndir.



M.Süleymanov vurğulayıb ki, hər iki nəşr milli və hərbi təhlükəsizlik məsələləri ilə maraqlananlar üçün nəzərdə tutulub.

Konfrans işini Silahlı Qüvvələrin Hərbi Akademiyasında keçirilən bölmə iclasları ilə davam etdirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar əsgər Nurlan MEHDİYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Azərbaycan Ordusunun nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Azərbaycan Ordusunun nümayəndələri Predyal şəhərində (Rumıniya) "Təməl dağa dırmanma təlim kursu", Oberammerqau şəhərində (Almaniya) Birgə təlim konfransı, Budapeşt şəhərində "Döyüş meydanında yaralılara təcili tibbi yardımın göstərilməsi kursu", Belqrad şəhərində (Serbiya) "REGEX 18" təliminin 5-ci planlaşdırma görüşü, Stavanger şəhərində (Norveç) tərəfdaş ölkələrin milli hərbi nümayəndələri ilə seminar və Tartu şəhərində (Estoniya) "NATO-nun Tibbi qiymətləndirmə kursu"nda iştirak edirlər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**8 may 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 90 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Böyük Vətən müharibəsi veteranları ilə görüş keçirilib




Müdafiə nazirinin tapşırığına əsasən, mayın 7-də Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə 1941-45-ci illər Böyük Vətən müharibəsi iştirakçılarının bir qrupu ilə görüşüb.

Görüş iştirakçılarını general-polkovnik Zakir Həsənovun adından salamlayan nazir müavini Qələbənin qazanılmasında Azərbaycanın igid oğul və qızlarının layiqli töhfəsinin olmasını, yüz minlərlə həmvətənlimizin canlarından keçməsini, Milli Azərbaycan diviziyalarının müharibə tarixinə parlaq səhifələr yazmasını, veteranların döyüşlərdə, o cümlədən arxa cəbhədə qəhrəmanlıq və böyük fədakarlıq göstərmələrini xüsusi vurğulayıb.

Nazir müavini veteranlarımızın bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak etməsini, gənclərin orduya hazırlanmasında və ordumuzun şəxsi heyətinin döyüş ruhunun yüksəlməsində səylərini əsirgəməməsini yüksək qiymətləndirib.

Bildirilib ki, ulu öndər Heydər Əliyev tərəfindən bu bayrama xüsusi önəm verilməsi və həmin ənənənin bu gün də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən davam etdirilməsi xalqımızın tarixi qəhrəmanlığına verilən qiymətin göstəricisidir.

Görüşdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov və digər qonaqlar ümummilli lider Heydər Əliyevin ideyalarına, dövlətçiliyə, Ali Baş Komandana həmişə sadiq olan müharibə veteranlarının müasir mərhələdə respublikamızın ictimai-siyasi həyatında xidmətlərindən, Böyük Vətən müharibəsində tarixi Qələbənin 73-cü ildönümü ilə əlaqədar ölkəmizdə keçiriləcək tədbirlərdən danışıblar.



İkinci Dünya müharibəsi veteranları adından Fatma Səttarova, İsmayıl Fərəcov və Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirib, işğal altında olan torpaqlarımızın azad ediləcəyinə və Azərbaycan Ordusunun parlaq qələbəsinə inamlarını ifadə ediblər.

Böyük Vətən müharibəsi iştirakçılarının bir qrupuna mükafatlar təqdim edildikdən sonra xatirə fotosu çəkdirilib.

**"Azərbaycan Ordusu"**

# "O dağların o tərəfi Şuşadı!"

**(Əvvəli 1-ci səhifədə)**

Zabitlə söhbətimiz elə maraqlı alınır ki, səngərə nə vaxt çatmağımdan xəbərim olmur. Səngərin girişində "Hər şey Vətən üçün" kəlmələri diqqətimi çəkir. Elə bu kəlmələrdi Azərbaycan əsgərinə ruh verən, onu yenilməz edən. İgidlərimiz yaxşı bilirlər ki, ömür Vətən üçündür. Onun uğrunda öldürmək də olar, ölmək də.

Səngərə daxil olduqda, manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Adil Ağayev növbəni dəyişirdi. Onunla həmsöhbət olmaq fürsəti tapdım. Adil 2016-2017-ci illərdə bu hərbi hissədə əsgər kimi xidmətini başa vurduqdan sonra ordu sıralarında qalmaq qərarına gəlib. Şabran rayonundan olan Adil bu yerlərin hər cığırına yaxşı bələd olduğunu dedi:

- Əraziyə bələd olmağım xidmətimi daha da asanlaşdırır. Manqa komandiri kimi az müddətdir xidmət edirəm. Döyüş postunda dayanmaq məsuliyyətlidir. Əsgərlərimiz də, biz də bunun fərqindəyik. Düşmən atəşkəsi vaxtaşırı pozur. Biz onlara layiqli cavab verərək susdururuq. Onlara gücümüzü 2016-cı ilin aprelində göstərdik. Mən o vaxt əsgər idim. Aprel döyüşləri Azərbaycan Ordusunun istər zabitinin, istərsə də əsgərinin mübarizliyini, igidliyini düşmənə deyil, bütün dünyaya göstərdi. Bu da ordumuzun döyüş hazırlığının, döyüş ruhunun yüksək səviyyədə olduğunun əyani sübutudur. Biz hər zaman Ali Baş Komandan İlham Əliyevin əmri ilə torpaqlarımızı işğaldan azad edib, Lələtəpədə, Bayraqtəpədə dalğalanan üçrəngli bayrağımızı digər ata-baba torpaqlarımızda da dalğalandırmağa hazırıq.

Daha sonra digər əsgərlərlə həmsöhbət oluram. İlk ünsiyyətimizdən onların yüksək mənəvi-psixoloji hazırlığını hiss edirəm.

Söhbət əsnasında Cəlilabad rayonundan xidmətə çağırılan əsgər Tosif Ağayev bildirir ki, xidmət zamanı üzləşdiyi çətinliklər artıq geridə qalıb: "Komandirlərimiz hər birimizə diqqət və qayğı ilə yanaşırlar. Dağ şəraitində xidmət etmək çətin görünə bilər. Lakin burada Vətənimizin müdafiəsində dayanmağımız üçün hər cür şərait yaradılıb. Mən və digər əsgər yoldaşlarım hər an Ali Baş Komandanın əmri ilə döyüşməyə hazırıq."



Yevlax rayonunda doğulub boya-başa çatan əsgər Vüqar Qəmbərov deyir:

- Hər gün barıt qoxulu səngərdə döyüş növbəsinə çıxanda Mübarizi, Fəridi, Çingizi xatırlayıram. Onların simasında bütün şəhidlərimizin qisasının alınacağı günü səbirsizliklə gözləyirəm. Əlbəttə, o günə çox az qalıb. İnşallah, qısa vaxtda döyüş əmri verilər və biz də torpaqlarımızı azad edib, ailəmizin yanına qələbə sevinci ilə qayıdarıq.

Döyüş növbətçiliyi aparan digər əsgərlər Ülvi Həsənov və Ramin Ramizli də ön xətdə xidmət etmənin qürurundan danışdılar. Hər zaman və hər şəraitdə torpaqlarımızın azadlığı naminə döyüşlərə atılmağa hazır olduqlarını vurğuladılar.

Əsgərlərin söz ilə dediklərini zabit İlkin İsgəndərov şeirlə tamamladı:

*Ruhumun yazılı bu yaz gecəsi,*
*Əsgərin torpağa təmas gecəsi,*
*Yoluma ələnər "Misri","Cəngi" də,*
*Başlasın indidən qisas gecəsi.*

Bəli, düşmən hər an hazır olsun igid Azərbaycan əsgərinin alacağı qisas qarşısında. Ali Baş Komandanımızın əmri ilə döyüşlər Böyük Qələbəylə tamamlanacaq! "O dağların o tərəfi Şuşadı!" - deyənlər tamamlayacaq!..

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Ermənistan hərbi rəhbərliyi təlaş içindədir

## Buna səbəb respublikada baş verən etiraz aksiyalarının orduya da sirayət etməsidir

*Son günlər Ermənistan hərbi rəhbərliyi ciddi təlaş içindədir. Bunun bir neçə səbəbi var.*

Təbii ki, əsas səbəb Serj Sarkisyanın baş nazir vəzifəsindən getməsindən və yeni baş nazir seçilməsindən sonra baş verə biləcək kadr dəyişikliklərinin həyata keçirilməsidir. "Qarabağ klanı"nın aqibətinin heç də yaxşı olmayacağını artıq hamı anlayır.

Başqa bir ciddi səbəb isə Ermənistanda baş verən etiraz aksiyalarının orduya da sirayət etməsidir. Təlaşa səbəb olan hal Nikol Paşinyana rəğbət bəsləyən hərbi qulluqçularla, Sarkisyan rejiminin əlaltıları arasında mübahisələrin artıq münaqişələrə təkan verməsidir. Son bir neçə gün ərzində Ermənistan ordusunda onlarla hadisə baş vermişdir ki, buna da səbəb hərbçilər arasında siyasi diskussiyanın mübahisəyə, sonradan isə qanlı insidentə keçməsidir. Faktlara nəzər salaq.

Mayın 4-də 1998-ci il təvəllüdlü əsgər Artur Qasparyanın, mayın 6-da isə 1999-cu il təvəllüdlü əsgər Levon Torosyanın döyüş mövqeyində cəsədi tapılıb.

Hər ikisinin naməlum şəraitdə öldürüldüyü bildirilsə də, əslində hər iki hərbi qulluqçunun Qarabağ erməniləri ilə, Ermənistan erməniləri arasında son günlər daha da güclənən münaqişənin qurbanı olduğu məlum olub.

Mayın 4-də baş verən daha bir insident ölümlə nəticələnməsə də iki Ermənistan hərbçisinin müxtəlif xəsarətlərlə hərbi tibb məntəqəsinə düşdüyü bildirilir. Bu dəfə isə mübahisəni yumruq davasına çevirən Qarabağ və Ermənistandan olan hərbçilər Aram Avenesyan və Marat Vanyandır.

Daha bir qanlı insident isə işğal olunmuş Ağdərə yaşayış məntəqəsində yerləşdirilmiş düşmən ordusunun bölmələrindən birində mayın 5-də baş verib. Şuşan adlı erməni zabit hərbi hissənin həkimi Azaryana zəng edərək Ermənistandan olan iki hərbçinin bıçaq yarası aldığını və təcili tibbi yardım maşınının göndərilməsini xahiş edib.

Hərbi hissənin zabiti polkovnik-leytenant Beqlaryan da faktı təsdiq edərək iki hərbçinin ağır vəziyyətdə hospitala aparıldığını bildirib.

Bu günlərdə keçirilən xidməti müşavirədə məhz bu mövzu, yəni keçmiş rejim tərəfdarları ilə, Paşinyana rəğbət bəsləyənlər arasındakı mübahisələrin cinayət hadisələrinə və qanlı insidentlərə səbəb olması müzakirə olunub.

Faktlarla bağlı araşdırmalar aparılsa da hələlik "sular durulanadək" tədbirin görülməməsi barədə qərar qəbul edilib.

N.Paşinyanın baş nazir seçiləcəyi təqdirdə başlanacaq "təmizləmə" prosesi nəticəsində erməni hərbçiləri arasında münaqişənin yeni vüsət alacağı, bir-birindən qisas almağa başlayacaqları səbəbindən bu cür cinayət hallarının sayının daha da artacağı istisna edilmir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# "Heydər Əliyev Azərbaycanın milli təhsil sisteminin yaradıcısıdır"





*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev Azərbaycanın milli təhsil sisteminin yaradıcısıdır" adlı tədbir keçirildi.*

Tədbir ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların ruhunun bir dəqiqəlik sükutla yad olunması ilə başladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

"Ümummilli lider Heydər Əliyevin irsinin öyrənilməsi üçün şəxsi heyətin qarşısında duran əsas vəzifələr" mövzusunda çıxışına başlayan məktəbin rəisi general-mayor Fizuli Salahov tədbiri açıq elan edərək bildirdi ki, möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyevin bütün fəaliyyəti Azərbaycan xalqına və dövlətinə xidmət etməkdən ibarət olmuşdur. "Heydər Əliyev Azərbaycanda müasir hərbi təhsil sisteminin yaradılmasının banisidir" - deyən məktəbin rəisi əlavə etdi ki, Heydər Əliyevin adını daşıyan bu məktəbdə xidmət etmək, çalışmaq, oxumaq həm şərəfli, həm də çox məsuliyyətlidir. "Biz bunu dərindən dərk edərək Vətən, xalq, dövlət qarşısında vəzifə borcumuzu ləyaqətlə yerinə yetiririk. Təhsildə, təlimdə qazanılan hər bir uğurumuz Ulu Öndərin xatirəsinə bir töhfədir."

"Ümummilli Liderimiz dəfələrlə məktəbimizdə olmuş, şəxsi heyət qarşısında çıxışı bizlərə həyatda necə yaşamağı, necə vətəndaş olmağı, Vətənə necə xidmət etməyin yollarını göstərmiş, hər birimizi yüksək əxlaqi-mənəvi, iradi keyfiyyətlərə malik Azərbaycan gənci, zabiti kimi görməyi arzulamışdır", - deyə general-mayor çıxışına davam etdi.

Əbədiyaşar komandanın məktəbin ilk buraxılışına həsr olunmuş mərasimdə dedikləri fikirləri xatırladan general-mayor Fizuli Salahov vurğuladı ki, bu sözlər Vətənə xidmət peşəsini - hərbi peşəni seçənlər üçün əsl həyat kodeksinə çevrilmişdir: "Əgər siz həqiqətən özünüzü hərbi peşəyə həsr etmək və hərbi məktəbə daxil olub ali hərbi təhsil almaq, Azərbaycan Ordusunda xidmət etmək istəyirsinizsə, demək, siz sağlam mənəviyyata malik olmalısınız. Sağlam mənəviyyat isə Azərbaycan dövlətinə, müstəqilliyinə və xalqımızın bu gününə və gələcəyinə sədaqətdən ibarət olmalıdır."

Ümummilli lider Heydər Əliyevin Sovet dövründə milli hərbi təhsil sisteminin inkişafında rolundan danışan məktəb rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Mikayıl Hüseynov bildirdi ki, 1971-ci ilin noyabrında xalqımızın müdrik oğlu Heydər Əliyev tərəfindən əsası qoyulmuş Cəmşid Naxçıvanski adına Hərbi Lisey onun həyatının ən böyük işi, Azərbaycan hərb tarixində Ulu Öndərin yaratdığı manumental bir abidədir.

Humanitar və Sosial fənlər kafedrasının rəisi polkovnik Rəhim Səmədov müstəqillik dövründə Heydər Əliyevin Azərbaycan ordu quruculuğunun hərbi-elmi əsaslarla inkişafından söhbət açdı. Siyasət elminin mahir bilicisi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı respublikanı labüd süqutdan xilas etdi və bununla da Azərbaycanda ordu quruculuğunun yeni mərhələsi başlandı. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələrinin, şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə, sosial şəraitin yaxşılaşdırılmasına istiqamətləndirilmiş tədbirlər müəyyən olundu. 1990-cı illərin ortalarından başlayaraq Azərbaycan ilə NATO arasında sıx və səmərəli əməkdaşlıq yaradıldı. Bu əməkdaşlıq ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Azərbaycan Ordusunun modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına gətirib çıxartdı.

Kursant Cavid Mustafayev: - Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti hər birimiz üçün örnəkdir, - dedi: "Mən və kursant yoldaşlarım fəxr edirik ki, Heydər Əliyevin adını daşıyan məktəbdə təhsil alırıq. O, bizim dahi müasirimizdir. Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri əvəzedilməzdir. Əgər Ulu Öndər 1993-cü ildə xalqın təkidli çağırışlarını qəbul etməsəydi, indi nə müstəqil dövlətimiz vardı, nə də firavan yaşayışımız. Bu faktın özü hər birimiz üçün qürur və iftixar mənbəyidir. Biz bu günün kursantı, sabahın zabiti olaraq qarşımızda duran vəzifələrin məsuliyyətini anlayırıq. Ona görə də çalışacağıq ki, Azərbaycan Ordusunun daha güclü və qüdrətli olması üçün üzərimizə düşən vəzifələri məsuliyyətlə yerinə yetirək."

Digər çıxış edənlər Azərbaycan dövlətinin günü-gündən inkişaf etməsindən və beynəlxalq aləmdə nüfuzunun daha da artmasından danışdılar. Bildirdilər ki, Heydər Əliyev elə bir zəmin yaradıb ki, xalqımızın azadlığı heç zaman, heç kim tərəfindən alına bilməyən əzəmət qalasına çevrilmişdir. Kursantların ifasında səslənən xalq şairi Zəlimxan Yaqubun "Sən qalib gələcəksən" şeiri zalda əyləşən iştirakçıların çoşub-çağlayan vətənpərvərlik hisslərini daha da alovlandırdı.

Tədbirin sonunda "Heydər Əliyev və ordu quruculuğu" adlı film nümayiş etdirildi.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# "Azərbaycanlılar İkinci Dünya müharibəsi illərində" adlı tədbir keçirildi

*Mayın 7-də Azərbaycan Hərb Tarixi Muzeyində faşizm üzərində qələbənin 73-cü ildönümünə həsr olunmuş "Azərbaycanlılar İkinci Dünya müharibəsi illərində" adlı tədbir keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, hərbi hissələrin, Respublika Veteranlar Təşkilatının üzvləri, məktəblilər və ictimaiyyət nümayəndələri, həmçinin Böyük Vətən müharibəsinin veteranları iştirak edirdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək bildirdi ki, İkinci Dünya müharibəsi bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövrü olmuşdur. "Faşizm üzərində qazanılan tarixi Qələbə asan başa gəlməmiş, hərbi əməliyyatların başlandığı ilk gündən bütün Sovet xalqları ilə birlikdə cəbhəyə yola düşmüş həmvətənlərimizin rəşadəti və hünəri bahasına qazanılmışdır. Müharibədə iştirak edən yüz minlərlə oğul və qızlarımızın təxminən yarısı döyüşlərdə həlak olmuşdur. Onlardan 130-u Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, yüz mindən çox əsgər və zabit müxtəlif orden və medallarla təltif olunub. Ümummilli Liderin sözləri ilə desək: "Böyük Vətən müharibəsi bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət göstərməyə tam qadirdir".

Muzeyin rəisi onu da diqqətə çatdırdı ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin qazanılmasında azərbaycanlı çağırışçılardan və könüllülərdən ibarət 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı atıcı diviziyalar böyük qəhrəmanlıq nümunələri göstəriblər.

Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov çıxışında Azərbaycan neftinin faşizm üzərində Qələbənin əsas şərtlərindən biri olduğunu vurğuladı: "Zəngin təbii sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan İkinci Dünya müharibəsində almanların işğalçılıq planında mühüm yer tuturdu. Onların niyyəti Bakı neftini alman şirkətlərinin sərəncamına vermək idi. Bu səbəbdən Bakı mədənlərini bombalamaq istəmirdilər. Adolf Hitler narahatlıq hissi keçirirdi ki, Sovet ordusu məğlub olduğu təqdirdə neft mədənlərini yandıra bilər. Buna görə də Berlindən faşistlərə gələn əmrlərdə Bakının işğalı zamanı yanğına yol verməmək tapşırılırdı. Hitlerin planına əsasən, Bakı 1941-ci il sentyabrın axırına qədər zəbt olunmalı idi".

Böyük Vətən müharibəsinin veteranları tədbir iştirakçılarına döyüş xatirələrindən danışdı, ümummilli lider Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin veteranlara göstərdiyi diqqət və qayğısından söz açdılar.

Çıxışlardan sonra tədbir iştirakçılarına azərbaycanlıların İkinci Dünya müharibəsində göstərdikləri igidliyə həsr olunmuş qısametrajlı film nümayiş etdirildi.

Tədbir Cəfər Cabbarlı adına 187 saylı tam orta məktəbin şagirdlərinin Vətənə və vətənpərvərliyə həsr olunmuş şeirləri və Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının solistlərinin ifası ilə başa çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda ümumordu iməciliyi keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci və faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə mayın 5-də Əlahiddə Ümumqoşun Ordusunda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ərazilərində ümumordu iməciliyi təşkil olunub.*

Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu illərdə iqtisadiyyatın bütün sahələrindən savayı, əhalinin sağlamlığının qayğısına qalaraq, ətraf mühitin ekoloji təmizliyinin qorunmasına da xüsusi diqqət yetirib. Ümummilli Lider Azərbaycanın iqtisadi-siyasi qüdrətinin artırılması üçün bütün ömrü boyu var qüvvəsi, əzmi, iradəsi ilə çalışıb, eyni zamanda xalqımızın sosial şəraitini, yaşayış səviyyəsini daha da yaxşılaşdırmağı özünün həyat amalına çevirib. Ulu Öndər yaşıllığın insan həyatında rolunu həmişə yüksək dəyərləndirib, ölkədə yeni bağlar və parklar salınması istiqamətində işlər aparıb.

Ümummilli Liderin qoyduğu ənənəyə sadiq qalaraq bu il də ölkəmizin bir çox ərazisində iməcilik işləri aparılıb. Belə iməciliklərdən biri mayın 5-də Nərimanov rayonunda yerləşən "Qardaşlıq Məzarlığı"nın ətrafındakı ərazilərdə baş tutub. İməcilikdə məqsəd ərazilərin məişət tullantılarından təmizlənməsi, ekoloji təmizliyin qorunması və yaşıllıqların suvarılması idi.




Müdafiə Nazirliyinin əməkdaşlarının iştirak etdiyi iməcilikdə fikirlərini bizimlə bölüşən Bakı Qarnizonu Hərbi Polisinin rəisi, Qarnizonun hərbi komendantı polkovnik Bəhruz Musayev Azərbaycan xalqının faşizm üzərində tarixi Qələbəyə böyük töhfə verdiyini, bu şanlı zəfərin əldə olunmasında payı olan xalqımızın yüz minlərlə oğul və qızını cəbhəyə yola saldığını, onların təxminən yarısının döyüşlərdə həlak olduğunu bildirib. Zabit həmin dəhşətli müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 100dən çox vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü, 100 mindən çox əsgər və zabitimizin müxtəlif orden və medallarla təltif edildiyini vurğulayıb.

* * *

Bakı Qarnizonu Hərbi Polisinin bir qrup şəxsi heyəti Azərbaycan Xalq Cümhuriyyəti dövrünün generalı Əlağa Şıxlinskinin Yasamal qəbiristanlığında yerləşən məzarını ziyarət etdilər. Hərbi Polis rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant İqor Yevseyev generalın göstərdiyi müstəsna xidmətlər barədə şəxsi heyətə məlumat verdi. Bildirdi ki, artilleriyanın Allahı adlandırılan Şıxlinski hərb sənətinin mahir bilicisi idi. "O, 1904-1905-ci illər rus-yapon müharibəsində batareya komandiri kimi ön cəbhədə qəhrəmanlıqla vuruşmuşdur. Port-Artur qalasının müdafiəsi zamanı xüsusi şücaət göstərdiyinə görə "Qızıl qılınc"la da mükafatlandırılmışdı. Göstərdiyi nümunəvi xidmətlərinə görə gənc hərbçiyə 1912-ci ildə general-mayor rütbəsi verilmişdi. Beləcə o, Azərbaycanın ilk hərbi generallarından olmuş, çar ordusunun aparıcı mütəxəssislərindən birinə çevrilmişdi. 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikasının yaranması zamanı Azərbaycan Ordusu da onun gərgin səyi nəticəsində yaradılmışdı. Məhz onun əməyi sayəsində ordunun xeyli cəbbəxanası formalaşmışdı."

Böyük sərkərdənin məzarı ətrafında abadlıq işlərinə başlandı. Ərazi təmizləndi və səliqə-sahmana salındı. Əkilmiş ağaclara qulluq göstərildi. Ağacların saralmış və qurumuş qol-budaqları kəsildi, dibləri yumşaldıldı və əhənglə ağardıldı. Torpaq belləndi və məzarın ətrafı lazımsız otlardan, artıq tullantılardan təmizləndi. Mövcud yaşıllıqlar sulandı. Əlağa Şıxlinskinin və onun xanımı Nigar Şıxlinskayanın məzarına gül dəstələri qoyuldu.

* * *

Mayın 5-də "N" hərbi hissəsində də iməcilik keçirilib. Söhbət zamanı polkovnik-leytenant Rasim Manafov bildirib ki, görkəmli dövlət xadimi, xalqımızın xilaskarı ulu öndər Heydər Əliyevin 95 illiyinə və faşizim üzərində Qələbənin 73 illiyinə həsr olunmuş iməcilikdə hərbi hissənin şəxsi heyəti fəal iştirak ediblər. İməcilik bölgədə yerləşən bütün hərbi hissələri əhatə edib. Bu münasibətlə hərbi hissələrdə mitinqlər təşkil olunub.

Hərbi qulluqçular Ulu Öndərin dövlətçilik fəaliyyətindən, böyük xilaskarlıq missiyasından Azərbaycanın bu günü və gələcəyi üçün həyata keçirdiyi quruculuq işlərindən bəhs ediblər. Qeyd ediblər ki, dahi şəxsiyyətin həyatı, mənalı ömür yolu hamıya örnəkdir. Böyük Vətən müharibəsində qələbənin əldə edilməsində Azərbaycan xalqının böyük şücaətlərini yada salan hərbi qulluqçular ata babalarımızın qəhrəmanlıq yolunu davam etdirməyə qadir olduqlarını bildiriblər.



Hərbi qulluqçular Ulu Öndərin adını daşıyan park və xiyabanlarda, 20 Yanvar abidə komplekslərində, Şəhidlər xiyabanlarında ictimaiyyət nümayəndələri ilə birgə ağacəkmə kampaniyasında iştirak edərək təmizlik və abadlıq işləri görüblər.

Park və xiyabanlarda hərbi orkestrin ifasında vətənpərvərlik mahnıları ifa olunub. Digər bölgələrdə də texniki təbliğat vasitələri ilə Ulu Öndərə, xalqa və Vətənə həsr olunmuş mahnılar səsləndirilib.

* * *

Bu il keçirilən ümumordu iməciliyi çərçivəsində Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş Həzi Aslanovun büstü ətrafında da təmizlik, abadlıq işləri görülüb. İməcilikdə Müdafiə Nazirliyinin əməkdaşları ilə yanaşı, ictimaiyyət nümayəndələri və şəhid ailələri də iştirak ediblər.

Xatırladaq ki, Böyük Vətən müharibəsinin qazanılmasında qəhrəmancasına vuruşan 100 minlərlə azərbaycanlıdan biri də iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş tank qoşunları qvardiyasının general-mayoru Həzi Əhəd oğlu Aslanovdur. Bacarıqlı sərkərdə Böyük Vətən müharibəsində göstərdiyi şəxsi igidlik və şücaətə görə 3 Qırmızı Bayraq ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, 2 Qırmızı Ulduz ordeni və digər medallarla təltif edilib. Bugünkü gündə qədirbilən xalqımız Vətən uğrunda canından keçən bütün qəhrəman oğullarımız kimi, Həzi Aslanovu da unutmur, onun xatirəsini daim hörmət və ehtiramla yad edirlər. Qəhrəmanın Şəhidlər xiyabanında yerləşən abidə-kompleksi hər il güc strukturlarının, digər dövlət qurumlarının nümayəndələri, orta və ali məktəb şagirdləri tərəfindən ziyarət edilir, heykəlinin önünə gül əklilləri qoyulur, eləcə də təmizlik işləri aparılır.

Tədbirdə iştirak edən mayor Elman Ağayev bildirib ki, bu layihə Vətən uğrunda qəhrəmanlıq göstərmiş oğullarımızın xatirəsini yad etməklə yanaşı, yaşıllıq zolaqlarının genişlənməsi, ekoloji mühitin sağlamlaşdırılmasının sürətlənməsi, insanlar arasında təbiətə qayğı hissinin güclənməsinə böyük töhfədir. General-mayor Həzi Aslanov kimi, igid oğulların qəhrəmanlıq dolu həyat yolu hər birimiz üçün nümunədir. Biz dövri-qədimdən ərazi bütövlüyümüz uğrunda canlarını sipər edərək şəhidlik zirvəsinə yüksələn igidlərin heç birini unutmur, onların ruhunu hər zaman böyük fəxrlə yad edirik. Onların canı bahasına bizə əmanət qoyub getdikləri Vətən torpaqlarının keşiyində inamla dayanırıq.

Ümumordu iməciliyinin planına əsasən, Həzi Aslanovun abidə kompleksi tam şəkildə təmizlənib, ətrafındakı ot-ələf vurulub, ağacların dibi bellənərək ağardılıb. Tədbir iştirakçıları iməcilik işlərini yekunlaşdırdıqdan sonra Şəhidlər xiyabanınında yatan digər şəhidlərimizin də məzarlarını ziyarət ediblər.

* * *

Bu günlərdə hərbi qulluqçularımız Yuqoslaviya cəbhəsində partizan dəstəsində faşistlərə qarşı vuruşmuş Mehdi Hüseynzadənin (Mixaylo) Yasamal rayonu Abbasqulu ağa Bakıxanov küçəsində yerləşən büstünü ziyarət edib, büstün ətrafında təmizlik və abadlaşdırma işləri aparıblar. Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin zabiti leytenant Tariyel Süleymanov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Tural Tağıyev, Ruslan Rəhimli və Gülnarə Kərimova tərəfindən təşkil olunan iməcilikdə ağaclara, yaşıllığa qulluq göstərilib, bəzi təmizlik işləri aparılıb.



Leytenant Tariyel Süleymanov söhbət zamanı bildirdi ki, bu tədbirlərin keçirilməsi və ordumuzu əhatə etməsi, hərbi qulluqçuların vətənpərvərlik hisslərinin möhkəmlənməsində və Vətənini tarixi barədə geniş informasiyaya malik bir fərd kimi formalaşmasında çox mühüm rol oynayır. "Böyük Vətən müharibəsi zamanı bizim millətin igid oğullarının və qızlarının göstərdiyi şücaət qələbənin qazanılmasında həlledici rol oynayıb. Belə qəhrəmanlarımızdan biri də Mehdi Hüseynzadədir. Mixaylo adı ilə tanınan Mehdi Hüseynzadə partizan dəstəsində alman faşistlərinə qarşı vuruşmuş və 700 nəfər girovu hərbi əsirlikdən azad etmişdir. Azərbaycanımız qədim zamanlardan bu günə qədər xalqımıza çoxlu qəhrəman oğullar bəxş edib. Bizim üzərimizə düşən əsas vəzifə isə qəhrəman oğullarımıza və tarixi şəxsiyyətlərimizə olan diqqət və ehtiramı nəsildən-nəslə ötürməkdir"

* * *

Hərbi Nəşriyyatda da iməcilik günü keçirilib. Bu cür tədbirlərin keçirilməsinin əhəmiyyəti böyükdür. Təbiət yaşıllaşır, ətraf gözəlləşir, yeni ağaclar əkilir və nəzərdə tutulmuş digər tədbirlər həyata keçirilir.

Hərbi Nəşriyyatın şəxsi heyəti də ümumordu iməcilik günündə binanın ətrafında, mətbəədə, iş otaqlarında və nəşriyyatın anbarında təmizlik işləri aparıb. Ərazi süpürülüb, ot örtüyü olan sahədə otlar biçilib, ağacların dibi yumşaldılıb və əhənglənib. Hərbi Nəşriyyatın rəisi polkovnik Füzuli Abbasov belə tədbirlərin əhəmiyyətindən danışaraq bildirib ki, yaşıllıqlara qayğı Ali Baş Komandan İlham Əliyevin siyasətində əsas istiqamətlərdən biridir. "Bu gün şəxsi heyətimiz tərəfindən ağaclara xüsusi qulluq göstərilir, onların dibləri bellənilir və gövdə hissəsi əhənglənir. Eyni zamanda alaq otlarının çoxalmasının qarşısını almaq məqsədi ilə otlar biçilir. Onu da qeyd edək ki, qazonun tez-tez biçilməsi otları təravətli saxlayır. İməciliyin ulu öndər Heydər Əliyevin doğum gününün 95 illiyi və faşizm üzərində Qələbənin 73 illiyi ərəfəsində keçirilməsi dahi şəxsiyyətə, onun Azərbaycan xalqı qarşısında gördüyü misilsiz xidmətlərə olan ehtiramının nümunəsidir."

Ərazidə ağaclara qulluq edən Ruslan Həsənov, Samid Gülxadzadə, Pünhan Namazov, Nazim İsgəndərov, Ramiz Əliyev, Zahid Hacıyev, Hacı Zalov, Əziz Əliyev, Şahin Şamoyev və başqaları təbiətə qayğı göstərməyin insanlıq borcu olduğunu qeyd ediblər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günü ərəfəsində onun qurucusu olduğu Azərbaycan Ordusunda keçirilən iməcilik hərbi hissə və birləşmələrdə, idarə və təşkilatlarda əkilən ağaclar bu ərazidə ekoloji tarazlığın bərpası və ətraf mühitin təhlükəsizliyinin, insanların sağlamlığının təmin edilməsi, ərazinin gözəlləşməsi istiqamətində görülən işlər ordu rəhbərliyinin Ulu Öndərin xatirəsinə yad olunmasına bir töhfədir.

**"Azərbaycan Ordusu"**

# Qələbənin qazanılmasında Bakı neftinin rolu



**Milix YEVDAYEV, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri**

*Təqdim edilən məqalə Vaşinqtonda çıxan "Jewish Journal" qəzetində "Azərbaycan Hitlerin məğlub olmasına necə kömək etdi" başlığı ilə dərc olunub.*

İkinci Dünya müharibəsi başlananadək Bakı nəhəng bir ölkənin əsas neft mərkəzi olub. Bütün SSRİ-də hasil edilən neftin təxminən dörddə üçü Azərbaycan paytaxtının payına düşürdü. Bakı nefti olmadan gözlənilməz, qəflətən başlanan müharibədə Sovet ordusunun faşist Almaniyası kimi son dərəcə hazırlıqlı rəqiblə üz-üzə gələcəyinin nə dərəcədə çətin olacağı aydın idi. Məlumdur ki, üçüncü Reyxin rəhbərləri Azərbaycanın neft yataqlarını ələ keçirməyə və bununla Sovet qoşunlarının yanacaqla təmin olunmasının qarşısını almağa can atırdılar.

1941-ci il idi. Bakı neftçiləri əvvəlki illərdə olduğu kimi, zərbəçi əmək növbəsinə dururdular. Plana görə, 923 min metr qazma işi aparmaq və 23 milyon ton neft hasil etmək nəzərdə tutulurdu. Ancaq faşist Almaniyasının SSRİ-yə qəfil hücumu bu plana yenidən baxmağa, döyüşən cəbhə bölgələrinin tələbatını qarşılamaq üçün neft emalı sahəsini yenidən qurmağa vadar etdi. İkinci Dünya müharibəsinin tərkib hissəsi sayılan Böyük Vətən müharibəsi mühərriklər müharibəsi oldu. Neft döyüş texnikasını həm quruda, həm havada, həm də dənizdə hərəkətə gətirən əsas hərəkətverici qüvvəsi olaraq qalırdı. SSRİ-nin Cənubunda Qərbi neft rayonlarının və kömür hövzəsinin faşistlər tərəfindən işğalı ilə əlaqədar Bakı neftinin əhəmiyyəti qat-qat artırdı. Bunu dərk edərək, cəbhəni yüksək keyfiyyətli yanacaqla fasiləsiz təmin etmək məqsədilə Bakı neftçiləri özlərinin bütün yaradıcı enerjisini sərf edirdilər.

Bütün çətinliklərə baxmayaraq, 1941-ci ildə Bakı şəhəri artıq ölkənin neft sənayesi tarixində rekord həcmdə - 23 milyon 541 min ton neft istehsal etmişdi. Qeyd etmək lazımdır ki, müharibə dövründə Sovet Azərbaycanının yarım milyondan çox oğul və qızları cəbhəyə - ölüm-dirim savaşına atılmışdı. Onların yarısı Vətənin azadlığı və müstəqilliyi uğrunda öz həyatlarını qurban verdi. Faşist işğalçıları ilə ən ağır cəbhələrdə döyüşərək həlak oldular.

Yerlərinin tez-tez dəyişmələrinə baxmayaraq, sənaye müəssisələri bütün tapşırıqları uğurla yerinə yetirirdi. 1943-cü ildə Bakı neftçiləri cəbhəyə 5 milyon tondan çox müxtəlif neft məhsulları, o cümlədən, 795 min ton benzinin müxtəlif növlərini, 640 min ton solyar, gəmi mazutu və 420 min ton aviayanacaq yolladılar.

Böyük Vətən müharibəsi illərində Bakı neftayırma sənayesinin kollektivi olmazın çətinliklərə sinə gərərək, çox böyük ixtiralara imza ataraq bütün resursları səfərbər etdilər. Cəbhəni, xalq təsərrüfatı sahələrini neft məhsulları ilə fasiləsiz təchiz etmək üçün qəhrəmancasına mübarizə apardılar. Bununla onlar faşist qəsbkarlarının darmadağın edilməsinə, dünyanın sülhsevər xalqlarının Hitler Almaniyası üzərində qələbəsinə böyük töhfə verdilər.




Bəs, müharibədən əvvəl Bakı nefti hansı mərhələləri keçmişdi? Qeyd olunmalıdır ki, Bakı neftçiləri hər zaman təcrübəsi, bu sahədə yeniliklərlə tanış olmaq və onu tətbiq etmək bacarığı ilə seçilmişlər. Hələ neft sənayesinin kapitalistcəsinə təşkilinin lap başlanğıcında Azərbaycanda zərbə (vurma) üsulu ilə qazmadan istifadə olunub. 1889-cu ildə ABŞ-da ilk dəfə fırlanma üsulu ilə quyu qazılmış və bu metod XX əsrin əvvəlində tez bir zamanda zərbə üsulunun yerini tutdu. Yeni ixtisaslı və müxtəlif peşəli fəhlələrə tələbat yarandı. 1925-ci ilin fevralında 19 neft işçisindən ibarət qrup Amerikada neft mədənlərində praktiki işlər üçün Bakıdan okeanın o tayına göndərildi. Tezliklə Bibiheybətdə fırlanma metodu ilə quyuların istismarına başlanıldı. Bundan başqa, neft mədənlərinin elektrikləşdirilməsi prosesi sürətlə gedirdi. Bununla da, texniki yenidənqurma işləri neft sənayesi müəssisələrinin rentabelliyini xeyli artırmağa imkan verdi.

Azərbaycan neftçiləri ucsuzbucaqsız ölkənin digər bölgələrində də neft yataqlarının kəşfi və işlənməsinə misilsiz töhfə veriblər. Bakı və Qrozni şəhərlərindən sonra Sibir, Orta Asiya, Samara vilayəti və keçmiş SSRİ-nin digər rayonlarında da neft hasilatına başlandı. Bakının çoxminli və çoxmillətli neftçi kollektivi tarixdə silinməz izlər qoydu.

Böyük Vətən müharibəsi Berlində Reyxstaq üzərində Qələbə Bayrağının sancılması ilə başa çatdı. Bu qələbədə Azərbaycan neftçiləri də öz tutarlı sözlərini dedilər. Sovet Bakısı cəbhə bölgələrini və xalq təsərrüfatı sahələrini neft məhsulları ilə fasiləsiz təmin edir və yüzminlərlə mühərriki havada, yerdə, dənizdə hərəkətə gətirirdi. Əfsanəvi sərkərdə Georgi Jukov öz xatirələrində yazırdı: "Bakı neçtiləri cəbhəyə və ölkəyə düşmən üzərində tezliklə qələbə üçün nə qədər lazımsa, o qədər də yanacaq vermişlər".

Bu Böyük Qələbədə Azərbaycanın dağ yəhudiləri bir də ona görə fəxr edirlər ki, o çətin illər Azərbaycan neft sənayesinin inkişafında, eləcə də neft hasilatının təşkil olunmasında əməyini əsirgəməyən mühüm simalardan biri - yəhudi xalqının layiqli oğlu, qocaman partiya işçisi (1928-ci ildən bəri), Bakı Partiya Komitəsinin katibi, sonralar isə Kuybişev vilayəti Partiya Komitəsinin katibi vəzifələrində çalışmış Yakov Mixayloviç Aqarunov olub.

Məhz Yakov Mixayloviç Aqarunov yüksək təşkilatçılıq bacarığı ilə neft hasilatının artırılmasına və sənayenin inkişafına öz töhfəsini verib.

Əlbəttə, həmin dövrdə Azərbaycan neftçiləri gördükləri işlərin nə dərəcədə böyük olduğunun fərqinə varmırdılar. Onlar namusla, əzmlə və fədakarcasına Sovet hökumətinin qabaqcadan müəyyənləşdirdiyi göstərişləri yerinə yetirir, ölkəni yeni-yeni zirvələrə doğru aparırdılar. Bu nəticədə onlara ölməzlik qazandırdı. Bu gün biz ata və babalarımızın əmək və qəhrəmanlıq salnaməsi ilə nurlanmış qəhrəman keçmişinə qürur və iftixar hissi ilə baxırıq...

# Bəşər tarixinin dəhşətli müharibəsi

*Böyük Vətən müharibəsində Azərbaycan xalqı da alman faşizminə qarşı mübarizə aparıb. Azərbaycanın qəhrəman oğul və qızları faşistlərə qarşı döyüşərək fədakarlıqlar göstəriblər.*

Bu il də xalqımız Qələbənin 73-cü ildönümünü böyük təntənə ilə bayram edir. Bu qələbənin əldə edilməsində həmvətənlərimizin də böyük rolu olub. Onlar müharibənin ilk günlərindən əllərinə silah alaraq faşistlərə qarşı amansızcasına vuruşublar. Döyüşənlər arasında müxtəlif peşə sahibləri - fəhlə, həkim, müəllim, tələbə, neftçi və s. var idi. Müharibənin başlanması xəbərini eşidəndə onlar yaşlarından asılı olmayaraq hərbi komissarlıqlara gedərək könüllü cəbhəyə yollanmaları üçün ərizə ilə müraciət ediblər. Hərbi forma geyinərək keçmiş ittifaqın müxtəlif şəhərlərinin müdafiəsinə qalxıblar. Elə bir cəbhə olmayıb ki, bizim həmvətənlərimiz orada döyüşməsinlər.

Müharibənin ağrı-acılarını hər ailə yaşayıb. İllər keçdikcə bu ağrı-acılar bir qədər yumşalsa da unudulmayıb. Söhbətlərdə, xatirələrdə, bədii və sənədli ədəbiyyatda, kinolarda yaşadılır.




Mən bu ağrıları həm də atamın söhbətlərində yaşamışam, yaşadıram, son nəfəsiməcən yaşadacam. Həmişə qürurlanmışam ki, atam Böyük Vətən müharibəsi iştirakçısıdı, Qafqazdan Berlinədək döyüş yolu keçib.

Aşağı siniflərdə oxuyurdum. Mayın 9-u idi. Atam evə bir dəstə çiçəklə qayıtdı. Maraqlandım. Anam dedi ki, bu gün atan üçün əziz gündü. Qələbə günüdü. Atan bu günü il ərzində böyük sevgilərlə gözləyir. Həmin gün anam bayram süfrəsi açmışdı. Atamın arada qəhərləndiyini də gördüm.

Atamın son nəfəsinəcən mayın 9-nu belə qarşılayırdıq.

Bakıda yaşadığımız illərdə atam bizi də parada aparardı. Onun döyüşçü yoldaşları ilə görüşü məni hər dəfə kövrəldər, qəhərləndirərdi. Saatlarla söhbətləşərdilər, ayrılmağa çətinlik çəkərdilər.

Tarixə qızıl hərflərlə yazılmış 9 May Qələbə Günü könülləri coşduran bayramdır. Böyük Vətən müharibəsinin iştirakçıları 9 May Qələbə Gününü həm də atalarının hünər, rəşadət, qəhrəmanlıq xatirələrinin yaşam bayramı kimi daha həssaslıqla qeyd edirlər...

Leytenant Nəsib Cəlal oğlu Yusubov müharibənin ilk günündən başlayaraq Qələbənin əldə olunmasına qədər keçmiş atalarının bir çox şəhərlərinin - Stalinqradın, Moskvanın, Kurskun və s. faşist işğalçılarından azad edilməsində iştirak edib. Onun iştirak etdiyi ən ağır, qızğın döyüşlərdən biri Berlinin almanlardan azad edilməsi olub. Komandanlıq tərəfindən əmr gəlib ki, bütün qüvvələr Berlin şəhərinə doğru istiqamətləndirilsin. Sovet qoşunları şəhərə yaxınlaşanda düşmənin güclü müqavimətinə rast gəliblər. Qızğın döyüş gedib. Döyüşçülər düşmənin cəmləşdiyi rayonun səngərlərini, artilleriya mövqelərini güclü atəşə tutublar. Bu döyüşlər zamanı çoxlu sayda düşmən əsgəri məhv edilib. Sovet qoşunları Berlin şəhərinə daxil olmaq üçün son və həlledici döyüşə hazırlaşıb.

1945-ci ilin mayı idi. Döyüş maşınlarının, təyyarələrin üzərində iri hərflərlə "Berlinə doğru", "Təslim ol, düşmən" sözləri yazılıb. Şəhərin hər bir meydanı, küçəsi döyüşçülər tərəfindən mərdliklə alınıb. Nəticədə düşmən istehkamları yarılıb. Düşmən qüvvələri şəhəri qoyub qaçıb. Hər tərəfi qara bulud alıb. Nəhayət, şəhər faşistlərdən azad olunub. Həmin gün şəhərdə qalanlar sevinclə əsgərləri qarşılayıblar. Bu böyük qələbə idi. Qələbədən 10 gün sonra leytenant Nəsib Yusubov doğma Vətəninə qayıdıb. Ali təhsilini davam etdirməyə başlayıb. Müxtəlif vəzifələrdə çalışıb. 1941-1945-ci illər ərzində göstərdiyi igidliklərə görə Ali Baş Komandan tərəfindən döş nişanları, fəxri fərmanlar, orden və medallarla təltif olunub.

**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**



# Hərbi orkestrlərin nümunəvi çıxışları təşkil olunacaq

Faşizm üzərində qələbənin 73-cü ildönümü münasibətilə mayın 9-da saat 17:00-dan 19:00-dək Bakı şəhərinin müxtəlif yerlərində hərbi orkestrlərin nümunəvi çıxışları təşkil olunacaq.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, orkestrlər şəhərin müəyyən edilmiş 5 nöqtəsində çıxış edəcək:

- Dənizkənarı Milli Parkda (Azadlıq meydanı qarşısında);
- Əhmədli qəsəbəsi Ukrayna dairəsi yaxınlığındakı Heydər Əliyev parkında;
- Zərifə Əliyeva parkında;
- Zabitlər parkında;
- Fəvvarələr meydanında.

AZƏRBAYCAN ORDUSU




# Şuşa həsrəti

*Şuşa - Qarabağın həmayili hər birimiz üçün müqəddəs məkandır. 1992-ci il mayın 8-dən onun həsrətindəyik. Üzücü həsrətdi. Şuşalılar da, Şuşanı görənlər-görməyənlər də bu qala-şəhərə qayıdacaqları günü səbirsizliklə gözləyirlər. Şuşanın əsrarəngiz təbiəti ahənrüba kimi hamımızı özünə çəkməkdədi. Qəsbkarların dağıtdığı tarixi abidələrin daşına-divarına toxunacağımız günün həsrətindəyik.*

Şuşanın əsası 1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan tərəfindən qoyulub. Şuşa adının da maraqlı tarixi var. Deyilənə görə, Pənahəli xan Bərdə xanına qonaq gəlir. Bərdə xanı hörmətli qonağın şərəfinə ov təşkil edir. Qarabağ atlarına minərək dağlara, sıx meşələrə ova çıxırlar. Dağlardan bu mənzərəni seyr edən Pənahəli xan heyrətlənir. Buranın sanki şüşədən olduğunu deyir. Hər tərəf ayna kimi görsənir. Burada şəhər salacağını bildirir və belə də edir. Qarabağın dilbər guşəsində Şuşa adlı şəhər salınır.

1992-ci ildən biz şüşə kimi saf təbiətə sahib torpağımızdan didərgin salındıq, ayrı düşdük. 26 ildir ki, Şuşaya həsrətik. 26 ildir ki, düşmənin tapdağı altındadır bu diyar.

Hər ilin 8 may günü Şuşa faciəsinin ildönümünü dərin qəhərlə yad edirik. İstər məktəblərdə, istər xüsusi təyinatlı müəssisələrdə, istərsə də tamaşa və kinoteatrlarda bu işğalla bağlı kompozisiyalar göstərilir.

Baxırıq. Olmuşları yenidən yaşaya-yaşaya olacaqlara - Böyük Qələbəyə tələsirik. Şuşa həsrəti tələsdirir bizi. Biz əminik ki, ordumuz Ali Baş Komandanın əmri ilə, Şuşa da daxil olmaqla, torpaqlarımızı işğaldan azad edəcək. Ordumuz öz qüdrətini aprel döyüşlərində nümayiş etdirdi. Hər birimiz inanırıq ki, Lələtəpədə dalğalanan bayraq yaxın zamanda Şuşada da dalğalanacaq!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun I kurs tələbəsi**

# "Mübariz kimi qəhrəmanlarla fəxr edirik"

Hərbi liseydə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş bölüklərarası hərbiləşdirilmiş idman yarışı keçirildi.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin idman rəisi Fərhad Əliyev çıxış edərək Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun həyat və döyüş yolu haqqında mərasim iştirakçılarına ətraflı məlumat verdi.

Sonra kursantlar böyük həvəslə yarışa başladılar. Birincilik uğrunda 9 komanda mübarizə apardı. Beynəlxalq qaydalara uyğun olaraq yarış dairəvi sistem üzrə keçirildi. Birincilik komanda və şəxsi xarakterli idi. Kursantlar bütün mərhələləri uğurla keçməyə çalışırdılar. Hakimlər isə iştirakçıların bütün hərəkətlərini diqqətlə izləyərək onları müvafiq balla qiymətləndirirdilər. Yarış davam edir, kursantlar mərhələlərdə çalışır, hakimlər xalları hesablayır...

Yarışlar 5 mərhələdə keçirildi. Birinci mərhələdə 100 metr məsafəyə qaçış, ikinci mərhələdə qumbaraatma, üçüncü mərhələdə uzunluğa tullanma, 4-cü mərhələdə turnikdə dartınma və nəhayət, 5-ci mərhələdə kəndirdartma yarışı.

Mərhələlərdə uğur qazanmış kursantlarla söhbət edib ürək sözlərini dinlədim. Kursant İlham Məlikov dedi ki, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş idman yarışında iştirak etməkdən qürur duyur. "Belə cəsur qəhrəmanla fəxr edirəm. Birincilikdə təmsil etdiyim komandanı irəli çıxarmaq üçün əzmlə mübarizə apardım. İnanıram ki, bizim bölük birinci pilləyə çıxaraq qalib adını qazanacaq. Belə maraqlı yarışlar bizi mübarizliyə, igidliyə və Mübariz kimi qəhrəman olmağa səsləyir."

Kursantlar Cavidan Rəhimli, Abbasqulu Allahverdiyev, Murad Məlikov, Nicat Məmmədov, Elman Əhmədli və başqaları da belə mötəbər yarışda iştirak etməkdən qürur duyduqlarını bildirdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# "Şahin" hərbi idman oyunlarının Bakı birinciliyi mübarizə şəraitində keçdi



*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "Şahin" hərbi idman oyunlarının Bakı şəhəri üzrə birinciliyi keçirildi.*

Polkovnik-leytenant Yaşar Abbasov Hərbi liseyin respublika məktəbliləri arasında keçirilən belə mötəbər yarışlara ev sahibliyi etməkdən qürur duyduğunu bildirdi. "Bu gün "Şahin" hərbi idman oyunlarının Bakı şəhəri üzrə birinciliyi keçirilir. Hər il keçirilən bu yarış gənclər üçün sanki bir mübarizlik meydanıdır. Burada siz öz güc və bacarığınızı nümayiş etdirirsiniz. Bakı şəhəri üzrə birinciliyə qədər müxtəlif mərhələlərdə yarışıb gücünüzü sınamısınız. İnanıram ki, bugünkü tədbir də çox maraqlı və şən keçəcək, unudulmaz anlar yaşayacaqsınız. Gənclərin hərbi vətənpərvərlik, Vətənə, xalqa və dövlətə sədaqət ruhunda tərbiyə olunmasında, onların ordu sıralarına hazırlanmasında "Şahin" hərbi idman oyunlarının çox böyük tərbiyəvi əhəmiyyəti var. Ona görə də həm Müdafiə, həm Təhsil, həm də Gənclər və İdman Nazirlikləri bu sahəyə böyük diqqət ayırırlar. Ulu öndər Heydər Əliyev çıxışları zamanı gənclər təşkilatları qarşısında çox mühüm vəzifələr qoyaraq demişdir: "Gənclər təşkilatının, gənclərin ən əsas vəzifəsi hər bir gənci orduya hazırlaşdırmaqdan ibarət olmalıdır. Gənclərin orduda xidmət üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır. Mən bunu gənclər təşkilatının əsas vəzifəsi hesab edirəm".

Bakı şəhər Gənclər və İdman İdarəsinin rəisi Raquf Abbasov, Gənclər və İdman Nazirliyinin sektor müdiri Əli Məmmədov, Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndəsi polkovnik Niyaz Məmmədov və başqaları çıxış edərək məktəblilərə uğurlar arzuladılar.

Çıxışlar başa çatandan sonra "Şahin" hərbi idman oyunlarının Bakı şəhəri üzrə birinciliyinə start verildi.

Yarışda, Laçın və Şuşa qaçqın rayonlarının komandaları da daxil olmaqla, 13 komanda iştirak edirdi.

Yarışın qaydalarına əsasən, komanda üzvləri 8 maneə zolağından keçməli idilər. Sıra hazırlığı mərhələsi başa çatdıqdan sonra məktəblilər avtomatın sökülüb-yığılması və tüfəngdən hədəfə atəş açılması məntəqəsinə üz tutdular. Hər addımda onların hazırlığının yüksək olduğu duyulurdu. Görünür ki, onlar yarışa ciddi hazırlaşıblar.

Komanda üzvləri atış çalışmasını yerinə yetirdikdən sonra kəndir vasitəsilə təhlükəli zolağın dəf edilməsi, kəndirin köməkliyi ilə hündürlüyə dırmanma və enmə, tel əngəlinin dəf edilməsi, təyin olunmuş vaxt çərçivəsində çadırın qurulması, minalanmış sahəyə qumbara atılması, mülki müdafiə, ilk tibbi yardım və başqa mərhələlərdən keçməyə başladılar. Bu mərhələlərdən keçməyə məktəblilərdə orduya, hərbi xidmətə böyük maraq oyadırdı. Ona görə də yarışlarda fəal iştirak edir, komandaları irəli çıxarmaq üçün mərhələləri uğurla keçməyə can atırdılar.




Nəhayət, həyəcanlı dəqiqələr arxada qaldı. Münsiflər qalibləri elan etdikdə məlum oldu ki, "Şahin" hərbi idman oyunlarının Bakı şəhəri üzrə birinciliyinin qalibi adını daha yaxşı nəticə göstərən Suraxanı rayonunun komandası qazanıb. İkinci yerə Yasamal, üçüncü yerə isə Binəqədi rayonunun məktəbliləri çıxıblar.

"Şahin" hərbi idman oyunlarının Bakı şəhəri üzrə birinciliyinin qaliblərinin mükafatlandırılması üçün mərasim keçirildi. Yarışın kuboku Suraxanı rayonunun komandasına təqdim olundu. İkinci və üçüncü yerə çıxmış komandaların üzvləri isə fəxri fərmanlarla və xatirə hədiyyələri ilə mükafatlandırıldı. Beləliklə, "Şahin" hərbi idman oyunlarının Bakı şəhəri üzrə birinciliyi başa çatdı. Hazırlığı yüksək olan məktəblilər daha güclü olduqlarını sübut edərək qalib gəldilər. Bugünkü yarışın qalibi olan üç komanda "Şahin" hərbi idman oyunlarının respublika birinciliyində iştirak etmək şansı qazandı. Deməli, yarış və mübarizə qarşıdakı günlərdə yenə də gənclik coşqusu ilə davam edəcək.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrində son günlər xidmət yerindən qaçaraq etirazçılara qoşulan hərbi qulluqçuların sayı artıb. Ordu mənsublarının hərbi formada etirazçılara qoşulmasından dərhal sonra Ermənistan Müdafiə Nazirliyi bir birinin ardınca bəyanatlar verərək, bu addımların yolverilməz olduğunu bildirib. Lakin bu müraciətlər mövcud durumu xilas etmir.

Belə ki, hərbi rəhbərliyin bəyanatlarından sonra etirazçılara qatılmaq istəyən erməni hərbçilər xidmət yerlərindən qaçaraq mülki geyimlərdə yürüşlərə qoşulurlar. Bu günlərdə faktla bağlı işğalçı ordunun Qarabağda yerləşdirilən bölmələrində təcili yoxlamalar keçirilib. Yoxlamaların nəticələrinin açıqlanması böyük qalmaqala səbəb olacağından çəkinən kriminal rejimin rəhbərliyi sabitlik yaranana qədər belə addım atan hərbi qulluqçular barədə tədbir görülməməsi yəni, məsuliyyətə cəlb edilməmələri barədə göstəriş verib.

Məlumatda, həmçinin məzuniyyətdə olan hərbi qulluqçuların da əksəriyyətinin yürüşlərə məhz mülki geyimdə qoşulduğu bildirilir.

Qarbağdakı hərbi hissədən yeməkxana növbətçisi və daha bir hərbi qulluqçu işə qaçaraq yürüşlərə qoşulan Gevork Mkrtçyan adlı hərbi qulluqçu bu kimi hallanın baş verdiyi barədə qohumlarına sosial şəbəkə vasitəsilə yazıb.

Eyni zamanda Dağlıq Qarabağdan Yerevana gedən nəqliyyat vasitələrinin yoxlanması gücləndirilib. Müvafiq sənədləri olmayan hərbi qulluqçuların Yerevana getməsinin qarşısı alınır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 283
Nüsxə 3525